Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.6.



# Ədalətli dünya naminə...

## Azərbaycan Prezidenti strateji əhəmiyyətli bir sıra ismarışları beynəlxalq ictimaiyyətə çatdırdı

**Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında strateji əhəmiyyətli bir sıra ismarışları beynəlxalq ictimaiyyətə ünvanladı. Xatırladaq ki, dövlətimizin başçısı 2004, 2010, 2017-ci illərdə də bu ali kürsüdən çıxış etmişdir. Eyni zamanda ölkə rəhbəri 2020-2021-ci illərdə pandemiya dövründə onlayn formatda bu məsələ ilə bağlı mühüm təşəbbüslərlə çıxış edərək mövqeyini bildirmişdir. Xüsusən pandemiya dövründə beynəlxalq səylərin birləşdirilməsi ilə bağlı unikal təşəbbüsü, BMT Baş Məclisinin xüsusi sessiyasının keçirilməsinə nail olması, həmçinin "vaksin millətçiliyi"nə qarşı dəyərli fikirləri beynəlxalq ictimaiyyətin yaddaşında dərin izlər buraxıb.**

Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev əvvəlki çıxışlarında Ermənistanın Azərbaycana qarşı təcavüzkar, terror siyasəti, onun ağır nəticələri, tarixi-mədəni abidələrimizin məhv edilməsi və digər məsələləri qaldırmışdısa, bu dəfə zəfərə, sülhə gedən yoldan danışdı. Yeni tarixi reallıqlar haqda fikirlərini bölüşdü. Bu kontekstdə dövlət başçısı keçilən yola, tarixi zəfərə qiymət verdi. "BMT Təhlükəsizlik Şurasının Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı qətnamələrinin məhz Azərbaycan tərəfindən icra olunması ilə bağlı fikirlərini səsləndirdi. Eyni zamanda vurğuladı ki, 2020-ci ilin noyabrında Ermənistan rəhbərliyi kapitulyasiya aktına imza atıb və Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Azərbaycan artıq yeni reallıqlar yaradıb", - deyə E.Nəsirov əlavə edib.

Deputat Azərbaycanın sülh təşəbbüsü ilə çıxış etdiyini xatırladaraq bildirib ki, ölkəmiz müharibədə qalib gəlsə də, sülhü qazanmaq əsas niyyət idi. Odur ki, sülh müqaviləsinin baza prinsipləri, ümumilikdə sülh mətni Azərbaycan tərəfindən hazırlandı. Nəticədə avqustun 8-də Vaşinqtonda tarixi əhəmiyyətli razılaşmalara imza atıldı. Sülh müqaviləsinin paraflanması, Ermənistan və Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması və bu prosesdə ABŞ Prezidenti Donald Trampın iştirakı və sənəddə onun imzasının olması mühüm məsələdir.

E.Nəsirov bildirib ki, Prezident İlham Əliyev artıq tarixə çevrilmiş münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun yaradıldığını xatırladaraq deyib ki, o mandatı üzrə fəaliyyət göstərməyib, sülhə nail olmayıb. Minsk qrupunun fəaliyyəti münaqişəni dondurmaqdan başqa bir şey deyildi.

Deputat xatırladıb ki, ATƏT-ə birgə müraciət əsasında sentyabrın 1-dən Minsk qrupu tarixə qovuşub: "Prezident bu məsələlərdən danışarkən dedi ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi Azərbaycana qarşı 907-ci maddəyə ədalətsiz, bədnam düzəliş tətbiq etmişdi. Vaşinqtonda əldə edilmiş tarixi razılaşmalardan biri də D.Trampın birbaşa dəstəyi ilə həmin maddənin dondurulması idi. Bu düzəlişi əvvəlki hakimiyyət dövründə ABŞ Konqresi qəbul etmişdi və yeni reallıqda Azərbacanın beynəlxalq təhlükəsizliyə və sülhə verdiyi töhfəni nəzərə alaraq, konqresin bu düzəlişi birdəfəlik ləğv etməsi sülh prosesinə töhfə verəcək. Dövlət başçısı bildirdi ki, qarşıda yeni vəzifələr dayanır və bunları uğurla həyata keçiririk. Bu gün Qarabağa və Şərqi Zəngəzura tarixi qayıdış davam edir. İşğaldan azad olunmuş ərazilərdə böyük quruculuq, abadlıq işləri görülür. Ölkə rəhbəri vurğuladı ki, ərazi bütövlüyümüz təmin edildikdən sonra, ermənilərin nəzarətində olan torpaqlarda minalanma həyata keçirilib. Bu da quruculuq prosesinə maneə yaradır. Bu günədək 400-ə yaxın soydaşımız mina qurbanı olub və ya ciddi xəsarət alıb. Birinci Qarabağ müharibəsində girov götürülmüş, itkin düşmüş 4000-ə yaxın soydaşımızdan isə hələ də xəbər yoxdur. Bunlar Ermənistan tərəfindən həll olunması vacib məsələlərdir. Rəsmi İrəvanın bu istiqamətdə addımlar atmasını gözləyirik".

E.Nəsirov Prezidentin Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışdığını xatırladaraq deyib ki, hazırda 14 ölkəyə qaz ixrac edirik. Paralel şəkildə "yaşıl enerji" sahəsində də yüksək nailiyyətlər əldə etmişik. 2030-cu ilə qədər Azərbaycanın enerji balansında "yaşıl enerji"nin payı 40 faizə çatacaq. Dövlət başçısı xüsusi diqqət yetirdi ki, "yaşıl enerji" istehsalı prioritet olsa da, yanacaq enerjisi aktuallığını qoruyub saxlayacaq. Prezident İlham Əliyev beynəlxalq birliyi ədalətli olmağa çağırdı. Bildirdi ki, heç bir halda selektiv ədalət ola bilməz. Bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə, qanunun aliliyinə hörmət edilməli və ədalətli bir dünyanın qurulmasına töhfə verilməlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***